# İşığa gedən yolun "Əkinçi"si

**Bütün millətlərin taleyində seçilmiş insanlar olur ki, o, millətə yol göstərib onu azadlığa, tərəqqiyə qovuşdursun. Kapitalizmin tələbləri qarşısında insanların yalnız öz mənafe və mənfəətlərini düşündükləri bir dövrdə ötən əsrlərdə xalqı, milləti üçün canından, malından, rahatlığından keçən insanların təmənnasız millət sevgisinə, keşməkeşli həyat yoluna təəccüblənməmək mümkün deyil. Həmin şəxslər adlarını Azərbaycan tarixinə qızıl hərflərlə yazmağı bacarıblar...**

XIX-XX əsrlər Azərbaycan tarixində böyük irəliləyişlər, tərəqqilər əsri olaraq anılır. Bu dövrdə teatrın, dramaturgiyanın, milli mətbuatın və digər yeniliklərin yaranmasının şahidi oluruq. Eyni zamanda bu dövr özünün neqativ halları ilə də təəssüf doğurur: fanatizm, savadsızlıq, kütləvi köləlik, mövcud rejimin antimaarifçi təzyiqləri, güclü senzura və s... Sözügedən əsr mürəkkəb və olduqca ziddiyyətli hadisələrlə, xeyirlə şərin, belə demək mümkünsə işıqla qaranlığın kəskin mübarizəsiylə səciyyələnirdi.

Bu baxımdan şairə-publisist Sona xanım Vəliyevanın "İşığa gedən yol" romanı Azərbaycan tarixinin və ictimai-siyasi fikrinin son dərəcə qarışıq, ziddiyyətli, eyni zamanda maraqlı və zəngin bir dövrünün işıqlandırılmasına xidmət edir. Roman real hadisələrin bədii dillə ifadəsinin ən gözəl nümunəsidir. Əsər ifadə baxımından o qədər gözəl, sadə və anlaşıqlı təsvir olunub ki, kitabı oxuduqca sanki, həmin hadisələrin içərisində birbaşa iştirakçısısan.

Romanın əsas qayəsi Həsən bəy Zərdabinin keçdiyi ağır, məşəqqətli, lakin şərəfli həyat, yaradıcılıq və maarifçilik yoludur. Onu bu yola istiqamətləndirən babası və atası olur. Uşaqlıqdan iti zəkası, hadisələrə fərqli yanaşması ilə yaşıdlarından fərqlənən Həsən bəyin ailədə də yeri özəl idi. Həsən bəyin həyat yolunu müəyyənləşdirməsində xüsusi rolu olmuş babası Rəhim bəy Həsən bəyin gələcəyinə böyük ümidlər bəsləyir, ona belə nəsihət edir:

"Həyatın boyu səni əhatə edən insanları, yaxınlı-uzaqlı, doğmalı-yadlı hər kəsi dinləməklə və insanlara kömək əli uzatmaqla bərabər, qərar qəbul edəndə hər zaman içindən gələn xeyirxah səsi dinlə və onun ardınca get!".

Babasının məsləhəti ilə Həsən bəyi Hacı Məhəmmədin mədrəsəsinə qoyurlar. Lakin mədrəsə həyatı Həsən bəy üçün hədsiz sıxıcı idi. O, mədrəsəyə getmək istəmir, atasının ona dərs keçməyini, bir müddət sonra özünün hər şeyi sərbəst öyrənəcəyini söyləyir. Bu məqamda romanda göstərilən ata-oğul söhbəti olduqca ibrətamizdir:

-Həsən, mən sənə bir sirr açacam, heç kimə deməzsən ki?

-Yox, ata, heç vaxt!

-Heç anana da, babana da söyləmə.

-Söz verirəm.

-Səni mədrəsədən çıxaracağam, amma bir il sonra. Bax, babanın illərlə topladığı, mənim uzaq-uzaq diyarlardan gətirdiyim kitabları sən ancaq mədrəsədə ərəb-fars dilini öyrənəndən sonra oxuya biləcəksən. Buna görə də ən azı bir il əlifbanı, dili mükəmməl öyrənəndən sonra sən lazım olan nəticəni əldə etmiş olacaqsan.

-Ata, sənə söz verirəm, hamıdan əla oxuyacam. Öyrədilən dərsləri yaxşı mənimsəyəcəm. Bəs sonra hara gedəcəm?

- Bax bu da qoy mənim sirrim olsun. Sən heç kimə heç nə demədən həvəslə mədrəsəyə getməyə davam et. Yaxın gəl, bax, ucsuz-bucaqsız uzanan bu əkin torpaqları bizimdir. Torpaq mülkdür. Atababadan bir-birimizə miras qoyduğumuz mülk! Amma vardövlət o deyil. Əsl var-dövlət atanın övlada verdiyi təhsil, tərbiyədir. Mən səni daim çoxalan, ətrafdakı insanlarla paylaşdıqca hər zaman artmaqda davam edən, tükənməyən var-dövlət sahibi etmək istəyirəm.

Bir insan elmi dərk edib öyrəndikcə, o, bir ovuc qiymətli daş-qaşa çevrilir. Paylaşıb yüzlərlə insana öyrətdikdə isə həmin elm xəzinəyə çevrilir, sən isə xəzinə sahibi olursan. Xeyirxahlıq, yaxşı əməl, elm bilirsən nəyə bənzəyir? Gəl bura, bax, görürsənmi, bu torpaq sahəsinin hər yerində buğda əkmişdik. Amma hər yerdə bərabər taxıl bitməyib. Əkilən toxumlar itməyib də. Sel, su bir yerdən yuyub, bitməsinə imkan verməsə də, sahənin ayağında daha yaxşı cücəriblər. Elm, xeyirxahlıq, yaxşı əməl də əkinçilik kimidir. Əkilən toxum bəhrəsini nəzərdə tutulmuş yerdə, gözlənilən vaxtda verməsə də, nə zamansa bar verəcək. Əkilənlər bir gün biçilir, bəhrə verir. Sən biçməsən də, oğlun, qızın bu əkindən mənfəət götürür.

-Deyirsən, mən əkinçimi olacam, ata?

-Yox, sən daha böyük işlər görəcəksən. Sən mənim arzularımın əkinçisi olacaqsan, əkinçi Həsən....

Bəli, Həsən bəy Zərdabi məhz əkinçi oldu. Maarif, elm, təhsil, tərəqqi xeyirxahlıq, vətənpərvərlik, ideyasının əkinçisi... Onun səpdiyi maarifçilik toxumları Azərbaycan-türk millətinin oyanışına, savadlanmasına, özünüdərkinə, birliyinə səbəb oldu. Səlim bəyin söylədiyi kimi, əkilən toxum bəhrəsini nəzərdə tutulmuş yerdə, gözlənilən vaxtda verməsə də, zamanı gəlincə bəhrə verdi. Həsən bəyin min bir



əziyyətlə səpdiyi toxumların bəhrəsi "Tərcüman", " Ziya", "Ziyayi-Qafqaziyyə", "Kəşkül", "Kaspi", "Şərqi-rus", "Həyat", "İrşad", "İşıq", "Molla Nəsrəddin", "Füyuzat" və bu kimi digər mətbu orqanlarında özünü göstərdi.

Bütün bu çətinliklərin öhdəsindən təkbaşına gəlmək, sözsüz ki, mümkün deyildi. Həsən bəyə dəstək olan, dəyərli məsləhətlər verən, mənəvi dayaq olan dostları olmuşdur. Onlar Azərbaycanın görkəmli şəxsiyyətləri Fərəc bəy Ağayev, Mirzə Fətəli Axundov, Seyid Əzim Şirvani, sonradan Nəcəf bəy Vəzirov, Əsgər ağa Gorani, Məhəmməd ağa Şahtaxtlı, İsmayıl Qaspıralı, Hacı Zeynalabdin Tağıyev, qubernator Staroselski, Əlimərdan bəy Topçubaşov, Əhməd bəy Ağaoğlu, Əli bəy Hüseynzadə və digərləri idi. Əsərdə tarixi şəxsiyyətlərin birbaşa öz adları ilə verilməsi, Həsən bəylə görüşləri, dialoqları oxucunun ruhuna rəngarənglik, həyəcanına həyəcan qatır. Onların münasibətləri ən gözəl dostluq nümunəsi kimi səciyyələndirilə bilər.

Mənəvi dəstəkdən danışarkən Hənifə xanım Məlikovadan bəhs etməmək günah olar. Hənifə xanım qadınların təhsil almasının mümkün olmadığı bir zamanda dövrünün təhsil almış ilk qadınlarından olub. O, Həsən bəyin həyat yoldaşı olması ilə yanaşı, həm də onun məsləkdaşı, ideyalarının daşıyıcısı, ən böyük dəstəkçisi idi...

Həsən bəy Moskvada oxuyarkən rus qızı Vera ilə bir-birilərinə aşiq olurlar. Amma Həsən bəy bu sevgidən, bu hisslərdən bacardıqca uzaq qaçmağa çalışır. Çünki qohumu Fərəc bəy onu Moskvaya yola salmamışdan əvvəl bu sözləri söyləyərək öz məsləhətini vermişdi:

"Bax, oğlum, sənə nəsihət və məsləhət vermək fikrindən çox-çox uzaq olsam da, bir şeyi unutmamağını tövsiyə edirəm. Sənin oxuyub elimiz üçün gərəkli bir mütəxəssis olacağına əminəm, hər şey biz arzuladığımızdan da yüksək səviyyədə olacaq. Amma gənclik illərində buraxılmış bir səhv, sonra ömrümüz boyu bizi izləyir, həyatımız istəmədiyimiz axarda davam edir. Söhbət gələcək ömür-gün yoldaşı seçimindən gedir. Mən həyatımda bir səhv buraxmışam, istəmirəm, sən də belə gənclik səhvini təkrarlayasan. İstəyirəm gələcək seçimində öz dəyərlərinə, ruhuna uyğun bir xanımla, öz məmləkətimizdən olan birisi ilə ailə qurasan. Bunu unutma! Ailəni kişi qurur, lakin qadın yaşadır və qoruyur. Övladları cəmiyyət üçün ilk növbədə analar hazırlayır. Sevgi gözəl hissdir, lakin gələcəkdə ailə qurduqdan sonra bu sevgi istənilən nəticəni verməyəcəksə, onun ardınca getməyinə dəyməz. Əgər həyat yoldaşını səninlə birgə dəyərlər, eyni amal, əqidə, məslək silahdaşlığı birləşdirməyəcəksə, bugünkü sevgi gələcək ailədəki, cəmiyyətdəki, ictimai həyatdakı uğurların təməlində dayanmayacaqsa, onda o ailə, o evlilik peşmanlığa səbəb olacaq".

Həsən bəy Vera ilə həyat qursa idi, bəlkə də, gözəl günlər yaşayardı. Amma Fərəc bəyin məsləhətindən, onun yad millətin qızı ilə həyat qurmasının acı nəticəsindən ibrət alaraq, Fərəc bəyin, eyni zamanda bir çox böyük türk xaqanlarının etdiyi səhvi-yad millətin qızı ilə evlənmək səhvini təkrarlamadı. Çünki yad ruha, yad mənəviyyata, yad düşüncəyə malik olan qadın (ana) dünyaya gələcək övladları milli ruhda, vətənpərvərlik ruhunda tərbiyə edə, böyüdə bilməz. Ən əsası o, Vera ilə evlənsə Hənifə xanım kimi bir həyat dostunu itirəcəkdi. Həsən bəy Hənifə xanımı özünün "balaca dostu" adlandırar, ona tez-tez deyərdi: "Sən mənim xilaskarımsan". Onların ailə münasibətləri ən gözəl örnək, ən gözəl sevgi hekayəsidir. Romanda bütün bu hadisələr poetik ustalıqla canlandırılıb.

Romanda diqqət çəkən məqamlardan biri də xeyriyyə cəmiyyətinin yaradılması məqsədilə Azərbaycanı qarış-qarış gəzən Həsən bəyin dilindən tarixi torpaqlar, ərazilər haqqında dolğun informasiyaların, faktların verilməsidir. Bütün bunlar əsərdə səfərnamə təəssüratı yaradır. Həsən bəyin ayaq qoyduğu hər bir ərazi haqqında müəllif ətraflı izahlar verir:

"O yol boyu bu qədim yurdun, gözəl Azərbaycan diyarının keçmişini, bugünkü vəziyyətini, gələcək taleyini düşünərək, tarixin dərin qatlarına baş vururdu...

Həsən bəy, Şərq və Avropa mənbələrindən İrəvan torpaqlarının qədim türk torpağı olduğunu sübut edən çoxsaylı materiallar oxumuşdu. Bu torpaqlarda, xüsusilə, Göyçə gölü ətrafında, mənbələrin məlumatına görə, lap qədim zamanlardan kimmerlər, saklar, iskitlər, hunlar, oğuz və qıpçaq türkləri yaşamışlar. "Kitabi-Dədə Qorqud" boylarında bəzi təsvir edilən hadisələrin tarixi məkanı da məhz elə bu yerlərdədir. Yaxud orta əsrlərdə Azərbaycan hökmdarlarının sifarişilə yazılan "Oğuznamə"də, Əbu Bəkr Tihraninin "Kitabi-Diyarbəkriyyə"sində Oğuz xaqanının Göyçə gölü ətrafında yaşadığı, haqq dünyasına da burada qovuşduğu qeyd olunur".

**Kitabda Həsən bəy Zərdabinin həyatı ilə yanaşı, XIX əsr və XX əsrin əvvəllərini əhatə edən Azərbaycanın dahi şəxsiyyətləri və həmin dövrdəki tarixi reallıqlar da yer alır. Saysız-hesabsız faktlarla, materiallarla zəngin olan əsər tarixi öyrənmək istəyən hər bir şəxs üçün qiymətli mənbədir. Eyni zamanda ürəyində Vətən sevgisi daşıyan hər bir Vətəndaşın zövqlə, sevgilə oxuya biləcəyi bir əsərdir...**

**Sevda ULUTAU**
**BDU-nun jurnalistika fakültəsinin**
**II kurs tələbəsi**